# Azərbaycançılıq ideyasının təbliği

## Milliyyətindən asılı olmayaraq Azərbaycanın müstəqilliyini, birliyini və hüquqi demokratik dövlət kimi inkişafını arzulayan hər bir kəs bu ideologiyanın daşıyıcısıdır

**Azərbaycanın dünya birliyinə inteqrasiyasının ideya əsasını azərbaycançılıq təşkil edir. Məhz bu ideya ilə biz özümüzü dünyaya tanıdır, onu mütərəqqi dünya dəyərlərini özündə birləşdirən ideologiya kimi təbliğ edirik. Bu işdə ölkəmizdən kənarda yaşayan azərbaycanlıların rolu isə mühüm əhəmiyyət daşıyır.**

Azərbaycançılıq ideologiyasının təbliği və onun təməl prinsiplərinin cəmiyyətə çatdırılması mühüm əhəmiyyət kəsb edir. Ona görə ki, dövlətin möhkəmlənməsində və dayanıqlı əsaslara söykənərək inkişaf etməsində bu ideologiya əsaslı rol oynayır. Daha dəqiq desək, azərbaycançılıq ideologiyası həm də birləşdirici missiyanı həyata keçirir. Çünki azərbaycançılıq ideyası ətrafında, etnik mənsubiyyətindən asılı olmayaraq, ölkədəki bütün insanlar birləşib. Bu da ondan irəli gəlir ki, Azərbaycanda yaşayan bütün xalqlar azərbaycançılıq ideyasını birləşdirici, vəhdət yaradıcı bir ideya kimi qəbul etməklə yanaşı, həm də bunu dərindən dərk edir. Azərbaycançılıq ideyasının fundamental əsaslarından birini də məhz bu faktor təşkil edir. Bu baxımdan azərbaycançılıq ideyası, demək olar ki, əhalinin bütün spektrini əhatə edir.

### AZƏRBAYCANÇILIQ İDEOLOGİYASININ TƏBLİĞİ İLƏ BAĞLI ALİ MƏKTƏBLƏRDƏ VƏZİYYƏT NECƏDİR?

Təhsil Şurasının sədri, professor Əjdər Ağayevin fikrincə, azərbaycançılıq ideologiyası kompleks şəkildə təbliğ olunmalıdır: "Azərbaycançılığın xüsusi bir fənn kimi tədris olunmasına ehtiyac yoxdur. Ona görə ki, bu cür yanaşma məhdud xarakterli olacaq. Çünki bu, elə bir məsələdir ki, bunun siyasi, sosioloji yönümü var. Əslində ideologiya öyrətmə yolu ilə meydana gəlmir. İdeologiya ortalıqda olan praktik işlərin nümunəsində meydana çıxır. Eyni zamanda, bu ideologiyanın mahiyyəti, əsasları, metodologiyası öyrədilir. Bu baxımdan buna geniş prizmadan yanaşıram. İstər ali məktəblərdə, istərsə də orta ümumtəhsil məktəblərində, harda olursa-olsun, ümumi şəkildə azərbaycançılıq haqda söhbətlər getməlidir. Bütün tədbirlərdə, mühazirələrdə, hətta ekskursiyaların özündə belə azərbaycançılığı qabartmaq lazımdır. Ailədən başlayaraq təhsilin son pilləsinə qədər ümumi azərbaycançılıq mövqeyi aşılanmalıdır. Pedaqoji baxımdan onu da qeyd edim ki, azərbaycançılıq bütün fənlərin timsalında aşılanmalıdır. Azərbaycançılıqla bağlı ali məktəblərdə xüsusi məşğələlərin keçirilməsinə zərurət yoxdur. Təkcə humanitar fənlər vasitəsilə bu ideologiyanı təbliğ etmək kifayət deyil. Texniki fənlər vasitəsilə də azərbaycançılıq təbliğ olunmalıdır. Ən başlıcası, tələbələrə dərs deyən müəllim azərbaycançılıq ideyasının daşıyıcısı olmalıdır".

Ekspertin fikrincə, tərbiyə işlərində, hərbi vətənpərvərlik tərbiyəsinin kökündə azərbaycançılıq dayanmalıdır: "Bu minvalla azərbaycançılıq ideologiyası böyüyən nəslin canına, ideyalarına, baxışlarına, əməllərinə hopmalıdır. Bu, həm də o zaman təsirli olur ki, bu ideologiya onu tədris edənin əməlində olsun. Yəni praktik fəaliyyətlə, şəxsi nümunələrlə nəzəri baxışlar, fikirlər vəhdətdə olmalıdır. Belə olarsa, gənclərimiz azərbaycançılıq ideyasının mahiyyətinə vararaq, ölkənin layiqli vətəndaşı ola bilər".

### AZƏRBAYCANÇILIĞIN ƏSAS ŞƏRTLƏRİ NƏDİR?

**Tədqiqatçı alim, filologiya elmləri doktoru, professor Nizaməddin Şəmsizadə** milli ideologiya tipi kimi azərbaycançılığın şərtlərini aşağıdakı kimi bölür: maarifçilik yolu ilə inandırma, tarixi əsaslandırma,



təşkilatlandırma, istiqamətləndirmə və yenini yaratma.

Onun mülahizələrinə görə, azərbaycançılığın tərkib hissələri bunlardır:

*- Məfkurəçilik (ülgüçülük), yəni sosioloji aspekt;*

*-İstiqlalçılıq (kökə qayıdış, azadlığın tarixən mənimsənilməsi);*

*- İttihadçılıq (birlikçilik).*

Onun üç bağlantısı var:

a) vətəndaşlıq; b) gendaşlıq; c) dindaşlıq;

*- Türkçülük (milli ideya kimi);*

*- İslamçılıq (ümmətçilik formasında) - Şərqdə ümmətçilik dövlət yaratmaq qüdrətinə malikdir.*

*- Ünsiyyətçilik. Vahid dillə (Azərbaycan türkcəsi) və mədəniyyətlə vəhdət.*

Bir qədər tarixə nəzər salsaq, əslində azərbaycançılıq ideologiyasının çox qədim tarixi kökləri vardır. Tarixin qədim dövrlərindən başlamış müasir günümüzə qədər Azərbaycan xalqının adət-ənənələrini, milli-mənəvi dəyərlərini, polietnik zənginliyini özündə yaşadan və birləşdirən baxışlar sistemi kimi azərbaycançılıq ideyası təşəkkül tapıb. Azərbaycan tarixən çoxmillətli ölkə, milli və dini tolerantlığın bərqərar olduğu məkan kimi tanınıb və bu üstün cəhətlər azərbaycançılıq məfkurəsinin əsasını təşkil edib. Xalqımızın böyük mütəfəkkirlərinin, dövlət adamlarının, ictimai xadimlərinin fəaliyyətində bu ideya təkmilləşdirilərək, tarixi zərurət forması əldə etdi.

### AZƏRBAYCANÇILIQ MƏFKURƏSİNDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ROLU

XX əsrin 80-ci illərinin sonlarında Azərbaycanda başlayan milli-azadlıq mücadiləsi və bu müstəvidə yaşadığımız faciələr həm ölkə daxilində, həm də xaricdə yaşayan soydaşlarımızın vahid ideya ətrafında birləşdirilməsi və onların imkanlarından istifadə edilməsini taleyüklü bir məsələ kimi ortaya çıxardı. Bu məsuliyyətli və taleyüklü məsələnin həllini öz üzərinə götürən görkəmli dövlət xadimi Heydər Əliyev qısa müddətdə tarixiliklə müasirliyin tam vəhdətinə nail oldu. O, bu müstəvidə dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşdirilməsinin Azərbaycanın gələcəyi üçün tarixi və strateji önəm daşıdığını uzaqgörənliklə müəyyən etdi. Həmin dövrdə Heydər Əliyev tərəfindən irəli sürülən azərbaycançılıq ideyası Azərbaycanın dünya birliyinə inteqrasiyasının təməl sütunlarından birini təşkil etməyə başladı.

Heydər Əliyev azərbaycançılıq ideologiyasını Azərbaycan dövlətinin ana xətlərindən birinə çevirərkən ilk növbədə tarix boyu əldə edilmiş zəngin təcrübədən məharətlə və uzaqgörən bir strateq kimi istifadə etdi. Bu baxımdan Heydər Əliyevin azərbaycançılığı ümummilli ideologiya olaraq irəli sürməsi onun Azərbaycan dövlətçiliyi naminə göstərdiyi tarixi xidmətdir. Məhz azərbaycançılıq Azərbaycana qarşı bir çox istiqamətlərdən yönələn təhdidlərin, ölkəmizi etnik bölücülük əsasında parçalamaq cəhdlərinin qarşısında güclü ideoloji və siyasi sipər oldu.

### GƏNCLƏR AZƏRBAYCANÇILIQ İDEOLOGİYASINA NECƏ TƏSİR EDİR?

**Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri Seymur Orucov** deyir ki, təbii ki, bu sahədə də əsas işimiz gənclərin dövlət siyasəti ilə bağlı maarifləndirilməsi, onların vətənpərvərlik ruhunda tərbiyə edilməsinə, azərbaycançılıq fəlsəfəsinə yiyələnməsinə dəstək olmaqdır: "Bu məqsədlə həm paytaxtda, həm də regionlarda müxtəlif səpkili layihələr həyata keçirilir.

Maarifləndirici tədbirlərimiz bir neçə istiqamət əhatə edir - azərbaycançılıq ideyasının, Heydər Əliyev irsinin təbliği, Prezident İlham Əliyevin fəaliyyətinin öyrənilməsi, erməni cinayətlərinin ifşası, gənclərin sosial biliklərinin artırılmasını və sair.

Bu istiqamətlərin hər birinə dair mütəmadi olaraq Gənclər Birliyinin ofisində tədbirlər təşkil edilir, dövlət rəsmiləri, elm adamları ilə gənclərin görüşləri keçirilir. Bundan əlavə, gənclərin öz təşəbbüsləri ilə rayonlarımızın işğal günləri, Xocalı soyqırımı ilə əlaqədar sosial şəbəkələrdə virtual aksiyalar keçirilir, müxtəlif beynəlxalq təşkilatlara, dünya dövlətlərinin parlamentlərinə erməni cinayətləri ilə bağlı məktublar göndərilir".

### AZƏRBAYCANÇILIĞIN MAHİYYƏTİ

**Millət vəkili Rövşən Rzayev** düşünür ki, azərbaycançılıq termini ictimai elmlər dövriyyəsində nisbətən yeni yaranan anlayışdır: "Bununla belə, son illər alim və tədqiqatçılar, ictimai xadim və yazarlar tərəfindən bu mövzuda bir sıra dəyərli məqalələr, monoqrafiya və dərsliklər yazılıb, azərbaycançılığın əsasları, mahiyyəti və konseptual tərəfləri şərh edilib. Akademik Ramiz Mehdiyev qeyd edir ki, azərbaycançılıq "ölkədə yaşayan bütün etnik qrupları və millətləri ümumdövlət mənafeləri və dəyərləri əsasında real surətdə birləşdirmək ideyasının verballaşdırılması kimi, 1992-1993-cü illərdə xüsusilə geniş yayılan şovinist və separatçılıq əhval-ruhiyyəsinə qarşı mübarizə ideyası kimi meydana gəlib".

Buradan belə nəticəyə gəlmək olar ki, azərbaycançılıq ideyası Azərbaycanın müstəqilliyini qorumaq, demokratik inkişafı təmin etməklə bərabər, davakar millətçilik və şovinizmə qarşı təşəkkül tapmış ideologiyadır. Azərbaycançılıq ideyasının kökündə millətçilik yox, vətəndaşlıq dəyəri dayanıb. Bu ideyanın məqsədi çoxmillətli Azərbaycan xalqının birləşməsi və demokratik yolla inkişaf etməsinə zəmin yaradan dəyərlər sistemini formalaşdırmaqdır".

Millət vəkili qeyd edib ki, azərbaycançılıq Azərbaycanın ərazisində yaşayan xalqların həmrəyliyi ilə məhdudlaşmır: "Bu ideologiya davakar millətçiliyi inkar etməklə bərabər, Azərbaycanın müstəqilliyini arzulayan, onun güclənməsini istəyən insanları birləşdirir".

Professor Nizaməddin Şəmsizadə qeyd edir ki, "Azərbaycançılıq coğrafi anlayış deyil, o, daha çox siyasi anlayışdır". Onun fikrincə, Azərbaycançılıq ideologiyası Azərbaycan cəmiyyətində milli birliyi və ümumxalq münasibətlərini qorumaq, millətin və onun dövlətinin mövqeyini izah, təsdiq və inkişaf etdirmək məqsədini daşıyır.

Ümumi olaraq, belə nəticəyə gəlmək olar ki, azərbaycançılıq milli-mənəvi varlığın ilkin əlamətlərini, xalqın kimliyini əks etdirən, milli təfəkkürünü birləşdirən dəyərlər sistemidir. Bu dəyərləri cəmləşdirən dil, ərazi, vətəndaşlıq, adət-ənənə və ideoloji birlik azərbaycançılıq ideologiyasının əhatə dairəsini sərhədsiz edir. Azərbaycandan kənarda yaşayan soydaşlarımızla yanaşı, milliyyətindən asılı olmayaraq Azərbaycanın müstəqilliyini, birliyini və hüquqi demokratik dövlət kimi inkişafını arzulayan hər bir kəs azərbaycançılıq ideologiyasının daşıyıcısıdır...

**Fidan Afər**
**"Azadinform" İnformasiya Agentliyinin müxbiri**

***Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim edilir***